

# Akif Əli oğlu Nərimanov – 75 il!

Bu il oktyabr ayının 10-da tanınmış geoloq-alim, geologiya-mineralogiya elmləri doktoru, professor, əməkdar mühəndis Akif Əli oğlu Nərimanovun anadan olmasının 75 ilidir.

A.Nərimanov 1946-cı il oktyabr ayının 10-da Gəncə şəhərində anadan olmuşdur. 1970-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsini dağ-mədən mühəndis-geoloqu ixtisası üzrə bitirmişdir.

A.Nərimanov 1968-ci ildən 50 il ərzində Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (SOCAR) müxtəlif vəzifələrdə çalışmış, qazma köməkçisindən şirkətin "Azneft" İstehsalat Birliyinin Baş geoloqu, SOCAR-ın Strateji İnkişaf üzrə vitse-prezidentinin müşaviri vəzifəsinə qədər yüksəlmişdir.A.Ə.Nərimanov 1982-ci ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Xəzər dənizinin Azərbaycan və Türkmənistan akvatoriyalarında bir neçə neft və qaz yatağının, o cümlədən Günəşli, Çıraq, Azəri, Kəpəz, Şahdəniz, Ümid, Barinov adına, Bulla-dəniz, 8 mart, Ələt-dəniz yataqlarının kəşfində bilavasitə iştirak etmişdir.

Akif müəllimin rəhbərliyi və iştirakı ilə SOCAR və AMOCO, MOBIL, BP, EXXON, Statoil, CHEVRON, CONOCO, Total kimi xarici şirkətlərlə birgə Azərbaycanın müxtəlif ərazilərinin geologiyası, karbohidrogen resurslarının qiymətləndirilməsi və neft-qaz potensialının əsaslandırılması üzrə çoxsaylı elmi-tədqiqat işlərinin təşəbbüskarı və rəhbəri olub. Əldə olunan nəticələr və irəli sürülən tövsiyələr bugünədək neft-qaz sənayemizin müxtəlif sahələrində uğurla tətbiq olunur. Dünyanın ən nüfuzlu elmi jurnallarında Akif Nərimanovun şəxsən apardığı və rəhbərlik etdiyi elmi-tədqiqat işlərini əks etdirən məqalələr və monoqrafiyalar çap edilib.

1990-2008-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının ( hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı", Neftqazmədən geologiyası" kafedralarının professoru A.Ə.Nərimanov geologiya elminə dair mühazirələr oxumuşdur. Cənubi Xəzər hövzəsində neft-qaz yataqlarının formalaşması konsepsiyasının yaradıcısı kimi dünya səviyyəsində tanınmış alim A.Ə.Nərimanov 2004-cü ildə Rusiya Təbiət Elmləri Akademiyası və Avropa Elmlər Akademiyasının həqiqi üzvü seçilməklə yanaşı "Ali Attestasiya Komissiyası"nın ekspertidir.

1992 -ci ildən Amerika Neftçi Geoloqları Assosiasiyası - AAPG-nin aktiv üzvüdür, 1993 -cü ildə isə AAPG-nin Azərbaycan bölməsini - Azərbaycan Neftçi Geoloqları Cəmiyyətini təsis edib ona rəhbərlik etdi, 1995 -ci ildən səsvermə hüququ ilə AAPG Nümayəndələr Palatasının üzvüdür.

Akif Nərimanovun təşəbbüsü ilə Neftçi Geoloqlar Cəmiyyətinin fəaliyyətinin əsas istiqaməti gənc mütəxəssislər və tələbələrə yönəlmişdir ki, cəmiyyətin xətti ilə aparılan elmi-tədqiqat-çöl işləri, seminarlar, konfranslar və s. tədbirlər onların gələcəyin yüksək səviyyəli mütəxəssis kimi yetişməsində əvəzolunmaz bir platformaya çevrilmişdir.

Avropa Yer Elmləri Alimləri və Mühəndisləri Assosiasiyasının – EAGE-nin Məsləhətçi Şurasının üzvü, 2003 -cü ildən isə EAGE-nin Azərbaycan bölməsinin prezidentidir. Bölmənin fəaliyyəti müxtəlif illər ən yüksək səviyyədə qiymətləndirilmişdir. Belə ki, 2014 və 2018 -ci illərdə Avropada fəaliyyət göstərən bölmələrin arasında 1-ci yerə – "Best Local Chapter" adına layiq görülmüşdür.

"Azərbaycan neft təsərrüfatı", " Azərbaycan Geoloqu", "Marine and Petroleum Geology", "Qeoloq Ukrainı", "Geoinformatika" kimi nüfuzlu jurnalların redaksiya heyətinin üzvü olub. 2014-cü ildən Azərbaycan Geoloqu jurnalının Baş redaktorudur.

A.Ə.Nərimanov bir sıra Beynəlxalq konfranslarda, o cümlədən 1984-cü ildə Moskvada keçirilən Ümumdünya Konqresində, AAPG və EAGE konfranslarında Amsterdam, Hyuston, Kiyev, Stavanger, Vyana, İstanbul, Mexiko, Dallas və diqər şəhərlərdə məruzələrlə çıxış edib.

Beynəlxalq səviyyədə aktiv fəaliyyətinə görə Ukraynanın Geoloqlar Komitəsinin Diplom və qızıl medalı ilə, EAGE-nin Fərmanı və AAPG-nin Xüsusi mükafatı ilə ilk dəfə olaraq MDB Dövlətlərinin alimləri arasında təltif edilib.

Akif müəllimi 75 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir,ona möhkəm cansağlığı,uzun ömür və elmi-təşkilati fəaliyyətində uğurlar arzulayırıq.

**"Azərbaycan neft təsərrüfatı "jurnalının**
**redaksiya heyəti və kollektivi**